

Xəyalə Zərrabqızı
Filologiya üzrə fəlsəfə doktoru



# Elçin İsgəndərzadə Məktəbi...

***Zamanını, vaxtını, sözünü dəyərləndirməyi bacaran Elçin İsgəndərzadə yaşadığı ömrü çox şərəflə dəyərləndirir. O, tutduğu yoldan, əqidəsindən, məsləyindən böyük Sabir kimi bir an belə dönmədən "düzü düz, əyrini əyri"? göstərmək yolunu tutub. Dəyərlərin və insani münasibətlərin çat verdiyi bir toplumun arasında öz təmiz adının ucalığını qorumaq nə qədər çətin olsa da, Elçin İsgəndərzadə bunu bacarıb, həm də kişi kimi bacarıb... O, elə ziyalılarımızdandır ki, yazdıqları ilə bizi aşınmağa, ruhumuzu çirklənməyə, mənəviyyatımızı karroziyaya uğramağa qoymur.***

***Söz adamının, sözün missiyası insanın daxili aləmini müsbətə doğru dəyişdirmək, onu daha kamil, üstün mərtəbəyə qaldırmaqdır. Elçin İsgəndərzadə də sələflərinin başladığı bu işin öhdəsindən sözün həqiqi mənasında şərəflə gəlməkdədir...***

**(əvvəli ötən sayımızda)**

Bir pritçada oxumuşdum ki, şükürlə irəliləyən ordunun qarşısında kimsə dayana bilməz. Bu ordu Ölümə şükr etdiyi, Əzrayıla gülməyi bacardığı üçün yenilməzdir. Oxuduqca Elçin müəllimin hər sətrində Allahın hər kəramətinə şükranlıq gördüm, onu bir daha ürəkdən alqışladım. Onun sahib olduğu ən nəcib insani keyfiyyətləri kimi şükür etməyi bacarmaq kimi ilahi bir keyfiyyətə sahib olması məni müəllifin daxili dünyasına və şeirlərinə yenidən bağladı:

**Ölümün də gözü üstümüzdədi –**
**Nələr keçər könlümüzdən**
**Anlamaz, duymaz,**
**İçər göz yaşımızı,**
**İçər doymaz.**
**Amma şükür**
**Bizi özgə ölümlə ölməyə qoymaz.**
**Tanrının gözü üstümüzdədi –**
**Alnımızı naxışlayır.**
**Könlümüzü ovsunlayır**
**Günahları bağışlayır.**

Şairin içində istisinə isindiyi, tüstüsünə kor olduğu bir ocaq var... İzahsız bir nisgil – Ata həsrəti için-için sızladır ruhunu... Bu elə ağrıdır ki, nə bölüşəndə azalır, nə yazmaqla səngiyir. Qaysaq tanımır belə yara... O itkini yaşadığın gündə donub qalır təqvimin tarixi... Saatın əqrəbləri də düşüncələri kimi dolaşıq düşür. Belə ağrıların üstündən nə zaman ötür, nə təqvim dəyişir...

**Atasını itirmiş uşaq kimi**
**Bu itkinin böyüklüyünü anlamadan**
**Atamı gözləyirəm sanki**
**gəlib əlimdən tutub**
**məni o biri səkiyə keçirəcək**
**Mənsə təzə gəlmişəm atamın qəbri üstündən**
**Başdaşı şəkli gülümsəyirdi üzümə**
**Mən də gülümsədim atamın şəklinə.**
**Gülümsədim ki, gəlsin bu qədərdən**
**Məni qoparsın**
**O biri səkiyə keçirsin,**
**Bu qarmaqaşırıq yoldan.**
**Atasını gözləyən uşaq kimi**
**əllərim uçur atamın əlinə sarı...**
**Amma atam gəlmir**
**Və heç zaman da gəlməyəcək.**
**Məni o səkiyə keçirtməyəcək.**

... Bu şeirin taleyini yaşayıram, o misraların içində gizlənirəm hərdən... Atasını gözləyən uşaq kimi əllərim uçur... Bu insan dənizinin içində tənhalaşıram. Onda hiss edirəm ki, "bu şəhərin əyninə dar gəlir darıxmağım..."

Bir Ustad tövsiyəsinə, bir ana əllərinin sığalına, bir ata qayğısına, bir Ustad məsləhətinə dərindən-dərinə ehtiyac duyuram. Bütün ümidlərimin solğunlaşdığı, bu böyüklükdə insan dənizinin içində ruhumun tənhalaşdığı bir vaxtda ərklə, ilahi doğmalıqla üz tutduğum bir ünvanım var – Elçin İsgəndərzadənin iş otağı... Nə hikmətdisə, dağ kimi üstümə gələn bütün sıxıntılar Onunla bölüşəndən sonra qum təpəciyi kimi ovuq-ovuq olur. Məsləhətləriylə, adamın ruhuna məlhəm olan, hüzur dolu səsi, sakitləşdirici intonasiyası ilə sözün həqiqi mənasında, təskinlik olur, təmkin öyrədir adama Elçin müəllim...

Allah həmişə dağına baxır, qar verir, ağacına baxır, bar verir... Elçin müəllim Allahın ona verdiyi ömür payını – zamanını, bir saniyəsini belə boşuna xərcləmədən dəyərləndirir, insanların və insanlığın xidmətində son dərəcə vicdanla, ləyaqətlə dayanır.



Əsl İnsan olmağı bacarmaq ən böyük şair, ən böyük müəllim, ən böyük şəxsiyyət ola bilməkdi...

***

***Bir oxucu kimi insan Onun əsərlərini oxuyanda belə ruhən müəlliflə doğmalaşır. Əgər bədii əsəri oxuyan adam həm müəlliflə, həm də bu əsəri oxuyan başqa adamlarla eyni hisləri keçirib ruhən bir-birinə qaynayıb qarışırsa, deməli, bu əsl sənət əsəridir. Belə əsəri oxuyan adama elə gəlir ki, burda yazılanların hamısı onun çoxdan demək istədikləridir. Əsl sənət əsəri həm oxucuyla müəllifin, həm də oxucuyla başqa oxucuların arasından bütün sədləri götürür. Əsl sənət əsərinin gücü məhz burda - insanı tənhalığından xilas edib başqalarına doğmalaşdırmağındadır.***

Elçin müəllimin həyatımızdakı rolu, böyük türk şairi Nazim Hikmətin təbirincə desək, havanın kurşun kimi ağır olduğu vaxtlarda həmişə haqqın və ədalətin yanında dayanması Onun mərd xarakterini tamamlayan, indiki vaxtda nadir rast gəlinən insan mənzərəsidir. O, həyatı ilə əsərləri, düşüncəsi ilə əməlləri arasında düz mütənasiblik olan sənətkarlardandır. Elçin İsgəndərzadə insanların hürr yaşamaq haqqını yalnız kitablarında, əsərlərində deyil, gerçək həyatda da daim müdafiə etmişdir. Onun əsərləri yüksək intellektual səviyyəsi, ictimai haqsızlıq və ədalətsizliklərə qarşı barışmaz ruhu, mübarizliyi ilə seçilir.

Zamanını, vaxtını, sözünü dəyərləndirməyi bacaran Elçin İsgəndərzadə yaşadığı ömrü çox şərəflə dəyərləndirir. O, tutduğu yoldan, əqidəsindən, məsləyindən böyük Sabir kimi bir an belə dönmədən "düzü düz, əyrini əyri"? göstərmək yolunu tutub. Dəyərlərin və insani münasibətlərin çat verdiyi bir toplumun arasında öz təmiz adının ucalığını qorumaq nə qədər çətin olsa da, Elçin İsgəndərzadə bunu bacarıb, həm də kişi kimi bacarıb... O, elə ziyalılarımızdandır ki, yazdıqları ilə bizi aşınmağa, ruhumuzu çirklənməyə, mənəviyyatımızı karroziyaya uğramağa qoymur.

***Söz adamının, sözün missiyası insanın daxili aləmini müsbətə doğru dəyişdirmək, onu daha kamil, üstün mərtəbəyə qaldırmaqdır. Elçin İsgəndərzadə də sələflərinin başladığı bu işin öhdəsindən sözün həqiqi mənasında şərəflə gəlməkdədir.***

***Yorulmaz əməyi, düşüncələri ilə çalışdığı Elm Məbədinin, qələmi, əsərləriylə Sözün ucalığı qoruyan, bütün ruhuyla, varlığıyla şüurlu həyatını elmə, ədəbiyyata xidmətə həsr edən Halal Sözün Halal övladına - Mənəvi Atamıza – professor Elçin İsgəndərzadəyə möhkəm can sağlığı, yaradıcılıq uğurları diləyi, nəhayətsiz sevgilər və sayğılarla!***